# PwC Azerbaijan Times

Biznes qanunvericiliyi & Təcrübəni yeniləmə

## Kiçik, orta və böyük sahibkarların meyarlarında dəyişiklik

Nazirlər Kabinetinin 15 may 2020-cil tarixli qərarı ilə “Mikro, kiçik,orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nda dəyişiklik edilmişdir.

Belə ki, yeni yaradılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektləri kimi müəyyənləşdirilməsi aşağıdakı göstəricilər əsasında həyata keçiriləcəkdir:

- dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən həmin hesabat ilinin sonunadək olan dövr üzrə artan yekunla gəlir göstəricisi müəyyən edildiyi halda **gəlir göstəricisi əsasında**,
- gəlir göstəricisi müəyyən edilmədiyi halda isə **işçi sayı** əsas götürülməklə.

Həmin sahibkarlıq subyektlərinin dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən ilk hesabat ilinin sonunadək olan dövrü əhatə edən təqdim edilmiş hesabatlara əsasən gəlir və işçilərin orta siyahı sayı göstəriciləri dəqiqləşdirilir və onlardan **daha yüksək olanı əsas götürülməklə** vergi ödəyicisinin meyarlar üzrə bölgüsü təkrar müəyyən edilir.

Qeyd etmək istərdik ki, əvvəlki qərara əsasən Yeni yaradılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri sahibkarlar kimi müəyyənləşdirilməsində onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 il müddətində müəyyən edilmiş *işçilərin say göstəricisi* əsas götürülürdü.

### Qeyd edilən məlumatlarla bağlı hər hansı sualınız yaranarsa bizə müraciət edin


**Movlan Paşayev**
Ölkə üzrə İdarəedici Partnyor
movlan.pashayev@pwc.com

**Elçin Məmmədov**
Direktor, Hüquqi Praktikanın Rəhbəri
elchin.mammadov@pwc.com

**Aysel Suleymanova**
Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
aysel.suleymanova@pwc.com

**Arif Quliyev**
Direktor, Vergi Məsləhəti Xidmətləri üzrə Rəhbər
arif.guliyev@pwc.com

**Elnur Məmmədov**
Direktor, Vergi Hesabatlığı və Strategiyası Praktikasının Rəhbəri
elnur.mammadov@pwc.com



© 2020 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.